# “12 dekabr” reallığı

## *Yaxud Topxana hadisələrinin təkrarı*

**Şuşa ərazisində Rusiya sülhməramlılarının nəzarətində olan yolun bir hissəsində azərbaycanlı aktivistlərin və ekologiya üzrə qeyri-hökumət təşkilatları (QHT) üzvlərinin keçirdikləri aksiya kifayət qədər ciddi, yüksək təşkilatlanmış sivil etiraz formasıdır. Aksiyanın hədəfi konkretdir: Azərbaycan öz ərazisindəki ekoloji terroru dayandırmaq istəyir və ona son qoyulmasını tələb edir. Bununla bağlı öhdəlik götürülməli, Qızılbulaq qızıl və Dəmirli mis-molibden yataqlarına Azərbaycan nümayəndələrinin – ekoloqlarının və sahə üzrə digər mütəxəssislərin girişi, onların işi, təhlükəsizliyi təmin olunmalıdır.**

*(ardı 3-cü səhifədə)*



# "12 dekabr" reallığı

*(əvvəli 1-ci səhifədə)*

Aksiyaçılar çadırlar qurub, tonqallar yandırıb, dekabrın 12-dən 13-nə keçən gecəni yatmayıb, səhəri diri gözlə açıblar. Belə görünür, onların qanuni tələbləri yerinə yetirilməyənədək geri çəkilməyəcək, Şuşa–Xankəndi yolunu, bir qədər də konkretləşdirsək, Laçın dəhlizini bağlı saxlayacaqlar. Etirazın dekabrın 13-də gün ərzində də davam etməsi, əraziyə paytaxtımızdan və digər bölgələrimizdən insanların kütləvi axını bunu deməyə əsas verir.



***

Bütövlükdə, Cənubi Qafqaz regionu üçün müstəsna əhəmiyyət daşıyan aksiya iki ildir davam edən erməni həyasızlığına qarşı yetərincə arqumentlənmiş etiraz formasıdır. Hələlik onun ən böyük nəticəsi Laçın dəhlizinin bağlanması, Ermənistanla Azərbaycanı bağlayan yeganə magistral yolun qarşısının kəsilməsidir. Buna Qarabağ erməniləri üçün nəfəsliyin tıxanması da demək mümkündür.

Əlbəttə, bölgədəki dinc ermənilərin bu tıxanmadan "boğulmaları" reallığı var. Ancaq onlar Ermənistanda rəhbər vəzifədə oturmuş soydaşları kimi, nəticə çıxarmalı, həm erməni siyasi rəhbərliyinə, həm də Qarabağdakı separatçı rejimə qarşı haqq səslərini ucaltmalı, aksiyaya dəstək verməlidirlər. Əməli fəaliyyətləri ilə bəyan etməlidirlər ki, dekabrın 11-də Azərbaycanın ekoloqlarının və mütəxəssislərinin yolunu kəsənlər, qanuni fəaliyyətlərinə maneçilik törədənlər onlardan deyillər, əvvəlcədən öyrədilmiş, təlimatlandırılmış başıpozuq kütlədir. Bunu İrəvanda, Parisdə, Moskvada hər kəsin eşidəcəyi yüksək səslə etiraf etməlidirlər.

Qarabağ erməniləri kimlərinsə onların tələləri ilə oynamalarına yol verməməlidirlər. Bilməlidirlər ki, siyasi spekulyasiya predmetinə çevrilmək heç bir perspektiv vəd etmir. Ya ölkəmizin təbeçiliyində vətəndaş kimi normal yaşamalı, öz evlərinin, mülklərinin, digər əmlaklarının sahibi olmalı, ya da bölgəni tərk etməlidirlər.

Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olmasının hansısa araiklərin, vardanyanların, paşinyanların və digər yanların, habelə, onların xaricdəki havadarları tərəfindən bəyan edilməsi bir yana, məhz Qarabağ erməniləri öz aralarında yığışmalı, təşkilatlanıb səslərini ucaltmalıdırlar. Onlar övladlarının, qohumlarının, əzizlərinin, yaxınlarının separatizmin təsirinə məruz qalmasının qarşısını almalıdırlar. Bunu insanlar gələcək yaşamlarını düşünməli, qərar verməlidirlər. Həyatları, sağlamlıqları üçün ciddi təhlükəyə çevrilmiş ekoloji terrorun dayandırılmasına, yaşadıqları bölgənin talan olunmasına münasibətdə səslərini ucaltmalıdırlar. Əgər səmimiyyətləri çatırsa, azərbaycanlı aksiyaçılara qoşulmalıdırlar. Bölgədə sülhün, əmin-amanlıq mühitinin bərqərar olmasına bundan gözəl töhfə ola bilməz.



***

İkinci bir tərəfdən, bu aksiya beynəlxalq ictimaiyyətə ünvanlanmış son dərəcə mühüm mesajdır. Elə bir mesajdır ki, onda Qarabağın Azərbaycana məxsusluğu vurğulanır, Azərbaycan insanının ruhu duyulur. Bu mesajda dirəniş, əzm çox ciddi şəkildə görünür. 44 günlük müharibədəki mütəşəkkillikdən sonra bu cür vəhdət mənzərəsini görmək olduqca xoşdur. Buna görə də aksiya iştirakçılarının hər birinə böyük minnətdarlıq payı düşür.

Qoy, dünya görsün ki, xalqımız öz torpağına sahiblənməyi yalnız silah gücünə etmir. Qoy, dünya onu da görsün ki, azərbaycanlıların Vətən və onun ayrılmaz hissəsi sayılan Qarabağa sevgisi tükənməzdir, bitməzdir.

Beynəlxalq aləm Qarabağ məsələsinin timsalında Azərbaycanla Ermənistan arasında sülhün yaradılmasının, asayişin, inam və etibar mühitinin formalaşmasının vacibliyini görsün. Məsələyə ciddiyyətlə yanaşılmasının müstəsna önəm daşıdığı hiss edilsin, tam şəkildə duyulsun.

***

Vurğulamaq istədiyimiz daha bir cəhət Rus Sülhməramlıları ilə bağlıdır. Azərbaycanda dəfələrlə Qarabağdakı Rusiya hərbi kontingentinin öz missiyasına həssas yanaşmadığı bildirilib, çoxsaylı müzakirələr açılıb. Əslində, bu aksiyanı doğuran gerçək səbəblərdən biri də budur.

Sülhməramlılar 2020-ci il noyabrın 10-da bölgəyə gələndə, üçtərəfli Bəyanatın mürəkkəbi qurumamış Qarabağa axın edəndə, ziddiyyətlərdə olan, yenicə müharibədən çıxmış iki xalq arasında vəziyyətin sabitləşməsinə, gərginliyin aradan qalxmasına çalışmalı idilər. Ötən müddətdəki fəaliyyətləri isə belə bir təəssürat yaratdı ki, erməniləri, sanki himayəyə götürüblər. Belə qənaətin formalaşmasına şərait yaratmaq yolverilməzdir. Burada tam ədalətli davranılmalı, ortaq mövqelər müəyyənləşdirilməli idi. Bu, baş vermədiyinə görə, identik həyasızlıq keyfiyyətlərinə köklənmiş erməni separatçıları Azərbaycan dövlətinin nümayəndələrinin yolunu kəsir, guya, onlara qarşı ictimai reaksiya nümayiş etdirirlər. İndi azərbaycanlıların etiraz dalğası qarşısında dayansınlar görək, necə dayanacaqlar!

Belə vəziyyətin yaranmaması üçün Rusiya sülhməramlıları, ilk növbədə, Azərbaycanın suveren haqlarını əsas götürməli, digər məsələləri arxa plana keçirməli, hər hansı xoşagəlməz hallara münasibətdə prinsipial mövqe tutmalı idilər. Çox təəssüf ki, bu, nəzərə çarpmadı. Yəni, dediyimiz kimi, 12 dekabr aksiyasını doğuran gerçək səbəblərdən biri də budur. Digər səbəb, eyni zamanda, sülhməramlıların fəaliyyətində Qarabağın Azərbaycana məxsusluğu amilinin vurğulanmaması ilə yanaşı, bölgənin sanki bir ayrıca ərazi vahidi olması ab-havasının yaradılmasıdır.

***

Sonda bir daha aksiya iştirakçılarına ölkə vətəndaşlarının minnətdarlıq duyğularını çatdırmaqla bərabər, vurğulayaq ki, bu təşəbbüs nəinki bölgənin, ümumən Azərbaycanın müasir tarixinə düşəcək son dərəcə mühüm hadisədir. Əminik ki, bu hadisə, həm özünün konkret məqsədinə çatacaq, həm də göstərdiyimiz xüsusların nəzərə alınması üçün müstəsna əsasa çevriləcəkdir.

Ona da əminik ki, bu aksiya əzəli və əbədi Azərbaycan torpağı olan Qarabağın separatçı ünsürlərdən tam qurtuluşu reallığını formalaşdıracaqdır. 1988-ci il noyabrın 17-də Şuşa ətrafında yerləşən Topxana meşəsinin qırılmasına etirazın sonda Azərbaycanımızın keçmiş SSRİ-nin buxovlarından qurtulmasını, müstəqilliyinə qovuşmasını şərtləndirdiyi kimi. Yada salaq ki, o zaman Topxana meşəsinin qırılmasının dayandırılması tələbi, eyni zamanda, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisində Azərbaycan hakimiyyətinin səlahiyyətlərinin bərpası tələbini də aktuallaşdırmışdı. Necə deyərlər, tarix təkrar olunur. Ötən əsrin 80–90-cı illərindən fərqli olaraq, indi dövran Azərbaycanın dövranıdır.

***Ə.CAHANGİROĞLU,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2022.- 14 dekabr.- S.1;3.